**“Avtonəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum olunmanın beynəlxalq nəticələri haqqında” Avropa Konvensiyasına qoşulmaq barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikası 1976-ci il iyunun 3-də Brüssel şəhərində imzalanmış “Avtonəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum olunmanın beynəlxalq nəticələri haqqında Avropa Konvensiyası”na **qoşulsun**.
2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 iyun 2000-ci il
№ 896-IQ

*Qeyri-rəsmi tərcümə*

**Avtonəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum olunmanın beynəlxalq nəticələri haqqında**
**AVROPA KONVENSİYASI**[1]
*Brüssel, 3 iyun 1976-cı il*
**PREAMBULA**

Avropa Şurasının bu Konvensiyanı imzalamış Üzv Dövlətləri,

yol-nəqliyyat hadisələrinin sayının çoxluğunu və onların ciddi nəticələrini nəzərə alaraq,

yol hərəkəti təhlükəsizliyinin yüksək dərəcədə təmin edilməsi üçün yol qanun pozuntularına qarşı adekvat vasitələrlə mübarizənin həyata keçirilməsinin vacib olduğunu hesab edərək,

bu məqsədə nail olmaq üçün ən effektiv vasitələrdən birinin, onların qarşısının alınması və cinayət cəzası tədbirləri ilə yanaşı, avtomotonəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilmə olduğunu hesab edərək,

beynəlxalq yol hərəkətinin genişlənən miqyasının milli qanunvericiliyin harmonizasiyasına və avtonəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum olunma haqqında qərarların onların qəbul edildiyi dövlətin hüdudlarından kənarda da qüvvəyə malik olmasının təmin edilməsinə yönəldilən intensiv səyləri şərtləndirdiyini hesab edərək,

bu cür əməkdaşlığın xeyrinə müddəaların artıq Avropa Şurası Nazirlər Komitəsinin avtonəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum olunma haqqında (71) 28 nömrəli

---

[1] 1983-cü il aprelin 28-də qüvvəyə minmişdir

Qətnaməsində əks olunduğunu hesab edərək,

Avropa Şurasının məqsədinin öz Üzvləri arasında daha möhkəm birliyə nail olmaqdan ibarət olduğunu xatırladaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

## I BÖLMƏ
## TERMİNLƏR

Maddə 1

Bu Konvensiyada:

a) "avtonəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum olunma" termini (bundan sonra "sürücülük hüququndan məhrum olunma") yol qanun pozuntusu törətmiş sürücü ilə münasibətdə onun avtonəqliyyat vasitələrini idarə etmək hüququnu məhdudlaşdırmaq məqsədilə müəyyən edilmiş istənilən qəti tədbir deməkdir. Bu cür tədbir əsas və ya əlavə cəza formasında ola və məhkəmə və ya inzibati orqan tərəfindən təyin edilə bilər;

b) "yol qanun pozuntusu" termini bu Konvensiyaya əlavə edilən Yol qanun pozuntularının ümumi siyahısında göstərilmiş istənilən qanun pozuntusu deməkdir.

## II BÖLMƏ
## SÜRÜCÜLÜK HÜQUQUNDAN MƏHRUM OLUNMANIN NƏTİCƏLƏRİ

Maddə 2

Sürücülük hüququndan məhrum olunma haqqında qərar qəbul etmiş Razılığa gələn Tərəf sürücülük vəsiqəsini vermiş Razılığa gələn Tərəfi, eləcə də qanun pozucusunun adətən yaşadığı Razılığa gələn Tərəfi bu barədə dərhal xəbərdar edir.

Maddə 3

Sürücülük hüququndan məhrum edilmə haqqında bildiriş almış Razılığa gələn Tərəf öz qanunvericiliyinə müvafiq olaraq digər Razılığa gələn Tərəfin qərarını şərtləndirmiş faktlar və halların onun ərazisində baş verəcəyi halda faydalı hesab edə biləcəyi sürücülük hüququndan məhrum edilmə haqqında qərar qəbul edə bilər.

Maddə 4

Bildirişin ünvanlandığı Razılığa gələn Tərəf xahiş əsasında bildiriş nəticəsində görülmüş hər hansı bir tədbirlər haqqında məlumat təqdim edir.

Maddə 5

Bu Konvensiya Razılığa gələn Tərəflərin öz qanunvericiliklərində nəzərdə tutulmuş tədbirləri görmək hüququnu məhdudlaşdırmır.

## III BÖLMƏ

## PROSEDUR MƏSƏLƏLƏRİ

Maddə 6

**1.** Razılığa gələn Tərəflər Avropa Şurasının Baş katibinin adına tərtib edilən bəyanatda 2-ci maddədə nəzərdə tutulmuş bildirişləri, habelə, bu Konvensiyanın tətbiqi ilə əlaqədar ola biləcək istənilən digər məlumatları göndərmək və almaq səlahiyyətinə malik orqanları göstərirlər.

**2.** Bildirişlər sürücülük hüququndan məhrum olunma haqqında qərarın təsdiq olunmuş surəti, eləcə də, faktiki halların şərhi ilə müşayiət olunur.

**3.** Bildirişin ünvanlandığı Razılığa gələn Tərəfin təqdim edilmiş informasiyanın bu Konvensiyanın tətbiq edilə bilməsi üçün kifayət olmadığını hesab edərsə, o zəruri əlavə informasiyanın və tələb olunarsa, bütün işin təsdiq olunmuş surətinin göndərilməsinə dair sorğu verir.

Maddə 7

Razılığa gələn Tərəflər bu Konvensiyanın tətbiqi üçün zəruri olan tədbirləri daxil etmək üçün cinayət işləri üzrə beynəlxalq yardımın göstərilməsi qaydalarına əlavələr edəcəklər.

Maddə 8

**1.** Bu maddənin 2-ci bəndinin müddəalarına riayət edildikdə bildirişlər və təsdiqedici sənədlərin tərcüməsi tələb olunmur.

**2.** İstənilən dövlət ratifikasiya, qəbul, təsdiq və ya qoşulma haqqında sənədini imzalayan və ya saxlanca verən zaman, Avropa Şurası Baş katibinin adına bəyanatda bildirişlər və təsdiqedici sənədlərin onun dilinə və ya Avropa Şurasının rəsmi dillərindən birinə və ya onun göstərəcəyi dillərdən birinə tərcümə ilə müşayiət olunmasını tələb etmək hüququnu özündə saxlaya bilər. Digər Razılığa gələn Tərəflər qarşılıqlılıq prinsipinin tətbiqi haqqında bəyan edə bilərlər.

Maddə 9

Bu Konvensiyanın tətbiqi zamanı təqdim edilən sənədlərin leqallaşdırılmasına ehtiyac yoxdur.

Maddə 10

Razılığa gələn Tərəflər bir birindən bu Konvensiyanın tətbiqindən irəli gələn hər hansı bir xərclərin ödənilməsini tələb etməyəcəklər.

## III BÖLMƏ

## YEKUN MÜDDƏALAR

Maddə 11

**1.** Bu Konvensiya Avropa Şurasının Üzv Dövlətləri tərəfindən imzalanmaq üçün açıqdır. O ratifikasiya, qəbul və ya təsdiq olunmalıdır. Ratifikasiya fərmanları və yaxud qəbul və ya təsdiq haqqında sənədlər Avropa Şurasının Baş katibinin saxlancına verilir.

**2.** Konvensiya üçüncü ratifikasiya fərmanının, qəbul və ya təsdiq haqqında sənədin saxlanca verilməsi tarixindən üç ay bitdikdən sonra qüvvəyə minir.

**3.** Bu Konvensiya sonradan onu ratifikasiya, qəbul və ya təsdiq edəcək hər bir imzalayan dövlətlə münasibətdə onun ratifikasiya fərmanının, qəbul və ya təsdiq haqqında sənədinin saxlanca verilməsi tarixindən üç ay bitdikdən sonra qüvvəyə minir.

Maddə 12

**1.** Bu Konvensiya qüvvəyə mindikdən sonra Avropa Şurasının Nazirlər Komitəsi Avropa Şurasının üzvü olmayan istənilən dövlətə ona qoşulmağı təklif edə bilər.

**2.** Bu cür qoşulma saxlanca verilməsi tarixindən üç ay bitdikdən sonra qüvvəyə minən qoşulma haqqında sənədin Avropa Şurasının Baş katibinə saxlanca verilməsi yolu ilə həyata keçirilir.

Maddə 13

**1.** İstənilən dövlət ratifikasiya fərmanının və ya qəbul, təsdiq və ya qoşulma haqqında sənədinin imzalanması və ya saxlanca verilməsi zamanı bu Konvensiyanın tətbiq ediləcəyi ərazini və ya əraziləri göstərə bilər.

**2.** İstənilən dövlət ratifikasiya fərmanının və ya qəbul, təsdiq və ya qoşulma haqqında sənədinin imzalanması və ya saxlanca verilməsi zamanı və ya daha sonra Avropa Şurasının Baş katibinin adına bəyanat təqdim etməklə bu Konvensiyanın təsirini həmin bəyanatda göstərilən və beynəlxalq münasibətlərinə görə məsuliyyət daşıdığı istənilən digər əraziyə və ya ərazilərə şamil edə bilər.

**3.** Əvvəlki bənd əsasında verilmiş istənilən bəyanat həmin bəyanatda göstərilən istənilən ərazi ilə münasibətdə Avropa Şurasının Baş katibinə ünvanlanmış bildiriş vasitəsilə geri götürülə bilər. Bu cür geri götürülmə Avropa Şurasının Baş katibi tərəfindən geri götürülmə haqqında bəyanatın

alınması tarixindən altı ay bitdikdən sonra qüvvəyə minir.

Maddə 14

**1.** İki və ya daha çox Razılığa gələn Tərəfin bu məsələ ilə bağlı münasibətlərini artıq unifikasiya olunmuş qanunvericilik əsasında tənzimlədikləri və ya daha geniş öhdəlikləri nəzərdə tutan qarşılıqlılıq əsasında şəxsi sistemlərini yaratdıqları və yaxud bunu gələcəkdə etmək niyyətində olduqları halda, onlar qeyd edilən münasibətləri bu şəkildə tənzimləmək hüququna malikdirlər.

**2.** Bu maddənin 1-ci bəndinə müvafiq olaraq bu məsələ ilə bağlı qarşılıqlı münasibətlərində bu Konvensiyanın müddəalarının tətbiqini dayandıran Razılığa gələn Tərəflər Avropa Şurasının Baş katibini bu barədə xəbərdar edirlər.

Maddə 15

**1.** İstənilən Razılığa gələn Tərəf Avropa Şurasının Baş katibinə bildiriş göndərməklə, bu Konvensiyanı ona aid olan həddə denonsasiya edə bilər.

**2.** Denonsasiya Avropa Şurasının Baş katibi tərəfindən bu cür bildirişin alınması tarixindən altı ay bitdikdən sonra qüvvəyə minir.

Maddə 16

Avropa Şurasının Baş katibi Şuranın Üzv Dövlətlərini, eləcə də bu Konvensiyaya qoşulmuş hər bir dövləti aşağıdakılar haqqında xəbərdar edir:

a) istənilən imzalanma;

b) istənilən ratifikasiya fərmanının və ya qəbul, təsdiq və ya qoşulma haqqında sənədin saxlanca verilməsi;

c) bu Konvensiyanın 11-ci maddəsinə müvafiq olaraq qüvvəyə minmə tarixi;

d) 6-cı maddənin 1-ci bəndinin müddəalarına əsasən alınmış istənilən bəyanat;

e) 8-ci maddənin 2-ci bəndinin müddəalarına əsasən alınmış istənilən bəyanat;

f) 13-cü maddənin müddəalarına əsasən alınmış istənilən bəyanat və ya bildiriş;

g) 14-cü maddənin 2-ci bəndinə əsasən alınmış istənilən bildiriş;

h) 15-ci maddənin müddəalarına əsasən alınmış istənilən bildiriş və bu cür denonsasiyanın qüvvəyə minmə tarixi.

Maddə 17

Bu Konvensiya, eləcə də onda nəzərdə tutulmuş bəyanatlar və bildirişlər yalnız maraqlı Razılığa

gələn Tərəflər arasında Konvensiya qüvvəyə mindikdən sonra törədilmiş yol qanun pozuntuları ilə münasibətdə tətbiq edilir.

Bunun təsdiqi olaraq lazımi qaydada vəkil edilmiş aşağıda imza edənlər bu Konvensiyanı imzaladılar.

1976-cı il iyunun 3-də Brüsseldə hər iki mətni eyni qüvvəyə malik olmaqla, ingilis və fransız dillərində Avropa Şurasının arxivlərində saxlanılacaq bir nüsxədə imzalanmışdır. Avropa Şurasının Baş katibi təsdiq olunmuş surətləri imzalayan və qoşulan hər bir dövlətə göndərir.

**Əlavə**

**YOL QANUN POZUNTULARININ ÜMUMİ SİYAHISI**

**1.** Yol hərəkəti hadisələri zamanı baş vermiş ehtiyatsızlıqdan adam öldürmə və ya bədən xəsarətlərinin yetirilməsi.

**2.** Yol-nəqliyyat hadisəsi yerini tərk etmə, yəni, nəqliyyat vasitələrini idarə edən sürücüləri tərəfindən yol-nəqliyyat hadisəsində iştirak etdikdən sonra yerində qalmaq vəzifəsinin qəsdən pozulması.

**3.** Nəqliyyat vasitəsinin idarə edilməsi:

a) sərxoş vəziyyətdə və ya spirtli içkinin təsiri altında;

b) narkotiklərin və ya analoji təsir göstərən digər maddələrin təsiri altında;

c) həddindən artıq yorğunluq nəticəsində pis fiziki vəziyyətdə idarə olunması.

**4.** Avtomotonəqliyyat vasitəsinin idarə olunması nəticəsində üçüncü şəxslərə dəymiş zərərə qarşı sığorta olunmamış avtomotonəqliyyat vasitəsinin idarə olunması.

**5.** Polis əməkdaşının yol hərəkəti ilə bağlı göstərişini yerinə yetirməkdən imtina.

**6.** Aşağıdakılarla bağlı qaydalara riayət olunmama:

a) avtomotonəqliyyat vasitəsinin hərəkət sürəti;

b) hərəkət edən avtomotonəqliyyat vasitələrinin mövqeyi və onların hərəkət istiqaməti, qarşıdan gələn nəqliyyatla yolayrıcında hərəkət, ötmə, hərəkət istiqamətinin dəyişməsi və dəmiryol keçidində hərəkət;

c) üstün keçid hüququ;

d) avtonəqliyyat vasitələrinin yanğınsöndürən avtomobillər, təcili tibbi yardım və polis avtomobilləri kimi müəyyən kateqoriyalarının üstün keçidi;

e) yol nişanları, siqnallar və göstəricilər, xüsusilə də hərəkətin dayandırılmasına göstəriş verən siqnal;

f) nəqliyyat vasitələrinin dayanması və durması;

g) nəqliyyat vasitələrinin və ya nəqliyyat vasitələrinin ayrı-ayrı kateqoriyalarının müəyyən yollara girişi (məsələn, onların çəkisi və qabaritləri ilə bağlı);

h) nəqliyyat vasitələri və onlarda olan yüklə bağlı təhlükəsizlik tədbirləri;

i) avtonəqliyyat vasitələrində və onlarda olan yükdə tanınma (siqnal) nişanları;

j) nəqliyyat vasitələrinin işıq cihazları və faraların istifadəsi;

k) nəqliyyat vasitələrində olan yük və onların yükgötürmə qabiliyyəti;

l) nəqliyyat vasitələrinin, nömrə nişanlarının və fərqləndirici milli nişanlarının qeydiyyatı.

**7.** Nəqliyyat vasitəsinin idarəetmə hüququ olmayan şəxs tərəfindən idarə olunması.